# Allah kimə rəhbərlik etməyi nəsib edərsə, rəhbərliyi altında olan insanları aldadaraq ölərsə, Allah cənnəti ona haram edər

Məqil bin Yəsar əl-Muzənidən (Allah ondan razı olsun) demişdir: Mən Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) belə dediyini eşitdim: "Allah kimə rəhbərlik etməyi nəsib edərsə, rəhbərliyi altında olan insanları aldadaraq ölərsə, Allah cənnəti ona haram edər".

[Səhih] [Müttəfəqun aleyhi(əl-Buxari və Musliminsəhih gördüyü hədislər)]

Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) xəbər verir ki, uca Allah tərəfindən insanlar üzərində rəhbərlik etməyi nəsib olunan hər bir şəxs - istər dövlət başçısı kimi ümumi rəhbər olsun, istərsə də kişi və yaxud qadın öz evində cavabdeh olsun - onlar öz məsuliyyəti altında olan insanlarla pis davranarsa, onları aldadarsa, onlara qarşı səmimi olmazsa, onların dini və dünyəvi hüquqlarını yerinə yetirməzsə, bu şiddətli cəzaya layiq olarlar.

https://www.sunnah.global/hadeeth/az/show/5335